

**Ay Musa**

*Sən şair doğuldun Azərbaycana,*
*Axıb könüllərə doldun, Ay Musa,*
*Yaralı qəlblərə su çiləyərək,*
*Xalqının şairi oldun Ay Musa.*

*Hər kəlmədən min bir məna kəsb olar,*
*Oxuyan, düşünər, həm ibrət alar.*
*Şeirlərin şöhrət tapar, ucalar,*
*Dərin ədəbi irs qoydun Ay Musa.*

*Qarabağ nisgilli, vətənin dərdi,*
*Qəlbinə hər zaman qəm, kədər verdi.*
*Dilində hər kəlmə igiddir, ərdi,*
*Şirin sözlərinlə baldın Ay Musa.*

*Yandı yurd eşqi ilə, alışdı sinə,*
*Qələmin süngüydü düşmənlərinə,*
*Sevindin Qarabağ çıxdı ağ günə,*
*Müsəlləh bir əsgər oldun Ay Musa.*

*Sən bir çiçək idin, ətrin danılmaz,*
*Ürəyin, söhbətin, sözün yorulmaz.*
*Elə bil iz qoydun itməz, danılmaz,*
*Əbədi tarixdə qaldın Ay Musa.*

Pərvanə Zalamlı
Qəbələ Yazarları
İB-nin üzvü

Paralel.- 2023- cü il.- 30 mart.- S. 13.